Ədəbiyyat Qəzeti

5 dekabr / 2020

# Təbriklər və ürək sözləri

**_Şeyxülislam Allahşükür PAŞAZADƏ_**

*(Azərbaycan)*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri, professor*

**_"Görkəmli ictimai xadim, məşhur filoloq alim olaraq, Kamal müəllim fitri istedad və bacarığı ilə Azərbaycanı dünya elmi müstəvisində yüksək səviyyədə təmsil etmiş, özünün akademik elmi və bədii əsərləri ilə Azərbaycan xalqının zəngin ədəbi ənənələri xəzinəsinə böyük töhfələr bəxş etmişdir. Azərbaycanın ictimai-siyasi tarixində öz dəst-xətti ilə seçilən Kamal müəllimi səciyyələndirən mühüm cəhətlər sırasında, heç şübhəsiz ki, peşəkarlıq, vətənpərvərlik, səmərəli idarəçilik, güclü dövlətçilik təfəkkürü, əzmkarlıq sayıla bilər. Üzvü olduğu dünya ölkələri Akademiyalarının, beynəlxalq təşkilatların, layiq görüldüyü beynəlxalq mükafatların adlarını sadalamaqla bitməz. Şübhəsiz ki, onun bütün bu uğurları Azərbaycanımızın adına şərəfdir._**

**_Mən dəyərli qardaşım Kamal Abdullaya bundan sonra da daha böyük zirvələr və uğurlar diləyir, həyat və fəaliyyətinə Uca Allahdan rəvac diləyirəm. İnşallah, uzun illər boyu öz yaradıcılıq qüvvəsini Vətənimiz, xalqımız, ayrılmaz parçası olduğumuz İslam aləmi, Türk dünyası naminə sərf etməsini arzu edirəm. Bu yolda ona uğurlar olsun! Uca Allah Kamal müəllimin ömrünü uzun, həyatını parlaq eləsin! AMİN!"._**